

## SOLMAZ ŞIRVANLI

### VƏTƏN DİLLİYƏM

Mən bir Şirvanlıyam, gül Şamaxıdan,
Almışam tərbiyə, dil Şamaxıdan,
Adımda adı var, el Şamaxıdan,
Kəndim Ovculudur, Şirvan elliyəm,
Bu elin qızıyam, şirin dilliyəm!

Ey Ulu Şirvanım, ey Ulu yurdum,
Doğuldum qoynunda, bir məskən qurdum,
Durub keşiyində səf duran ordum,
Qəlbimdə istəyim, Şirvan elliyəm,
Bu elin qızıyam, Vətən dilliyəm!

### BİR ALLAHIM, BİR QƏLƏMİM, BİR DƏ MƏN

Yenə də kənddəyəm, təkəm-tənhayam,
Dərin bir dəryayam, keçilməz çayam,
Sanıram göydəyəm, Günəşəm, Ayam,
Görənlər sanır ki, cansız heykələm,
Əzəl gündən qail oldum dərdə mən,
Bir Allahım, bir qələmim,bir də mən!

Adım sağdır, sanki ruha dönmüşəm,
Sonsuz fəzalardan yerə enmişəm,
Rəbbim özü verib dili, dinmişəm,
Doğru sözü söylədim hər yerdə mən,
Bir Allahım, bir qələmim,bir də mən!

O, verib dözmüşəm, hər bir acını,
Uzaq salıb məndən qardaş-bacını,
O qoyub başıma şair tacını,
O sınayıb, çox dözmüşəm dərdə mən,
Bir Allahım, bir qələmim, bir də mən!

Dözmüşəm bil, dözəcəyəm yolunda,
Pərvanəyəm, dolannam sağ-solunda,
İslanıb-əzilsəm yagış-dolunda,
Bir sadiq qulunam sənin, ey Vətən,
Bir Allahım, bir qələmim, bir də mən!

Solmaza, bu bəxti verəni sənsən,
Çəkdiyi acını görəni sənsən,
Telin düyün salıb hörəni sənsən,
Çarə bir özün ol, dözüm dərdə mən,
Bir Allahım, bir qələmim, bir də mən!!!

### DÜNYADA

Bir dünya ki, hər şey pula bağlanıb,
Pul dərdindən subay dula bağlanıb,
Bir Rəbbim var Solmaz ona bağlanıb,
O sevgiylə yaşayacam dünyada!

Əsil bir sevgidən doğulmuşam mən,
Doğrunu deməsəm boğulmuşam mən,
Öz ata yurdumda oğulmuşam mən,
Bir o adı daşıyacam dünyada!

Dağ vuracam ürəyinin başından,
Qan-yaş axa kirpiyindən, qaşından,
Bir gün qalib çıxıb yurd savaşından,
Ərənlər tək yaşıyacam dunyada!

Hayıf alıb, bilin başın əzəcəm,
Gözün ovub, nəfəsini kəsəcəm,
Xəncər alıb boğazını üzəcəm,
İgid adın daşıyacam dünyada!

Od qoyacam, düşmən bagrın oyacam,
Başın kəsib, qanın içib doyacam,
Yarasının qaysağını soyacam,
Duz səpəcəm, qasıyacam dünyada!

Solmaz, yoxdur daha səbrim-qərarım,
Yurd yağıda, tapdalanır vüqarın,
Qalx düşmən üstünə, el oğlanlarım,
Şəhid olub, yaşayacam dünyada!

## FƏRMANIM OL

Mənə sevgim deyən, günəsim deyən,
Ey sevda mələyim, atəsim deyən,
Susub-dinməyəndə qaralar geyən
Ya çəkil yolumdan, ya dərmanım ol,
Ya da öldür məni, can fərmanım ol!

Gəl elə bağlanaq, qırılmaz olsun,
Kim desə bu sevgi yorulmaz olsun,
Bir sevda istərəm sarsılmaz olsun,
Qıymaram deməyə, gəl qurbanım ol,
Ya qol qoy qətlimə, ya dərmanım ol!

Solmazam, eşqimdə mətanətliyəm,
Lalədir gül yanaq, lətafətliyəm,
Eşqdə Züleyxa tək məhəbbətliyəm,
Sən də gəl Yusif ol, dərd dərmanım ol,
Söylə son sözünü, can fərmanım ol!

## BELƏCƏ SEVƏK

Mənə bir sevda ver, olmasın tayı,
Elə bir sevda ki, baharı-yayı,
Bəxtəvər ömür-gün,olmasın sayı,
Sən məni, mən səni beləcə sevək!

Elə bir sevda ki, qırılmaz olsun,
Sevsin, usanmasın, yorulmaz olsun,
Yolları döngəsiz, burulmaz olsun,
Sən məni, mən səni beləcə sevək!

Mənə bir sevgi ver qəmdən uzaqda,
Qoy olum qüssədən, kəmdən uzaqda,
Güldür gözlərimi nəmdən uzaqda,
Sən məni, mən səni beləcə sevək!

Elə sev ki, şerim sənə yazılsın,
Ürəyimdə sənin adın qazılsın,
Misralarda adın sapa düzülsün,
Sən məni, mən səni beləcə sevək!

Telimin darağı olsun barmağın,
Qismətin xoş olsun, gülsün növragın,
Güllü çəmənlərdən gəlsin sorağın,
Sən məni, mən səni beləcə sevək!

Yusif Züleyxanın eşqindən dərin,
Daim məni sevsin qara gözlərin,
Sənincün yazılsın şeirim, sözlərim,
Sən məni, mən səni beləcə sevək!

Qıyma ki, Solmazın ağlaya sənsiz,
Bir sevgi bəxş eylə dumansız, çənsiz,
O nə sənsiz yaşar, nə də Vətənsiz,
Sən məni, mən səni beləcə sevək!
Sən məni, mən səni ölüncə sevək!!!

## YOLUNDA QURBANAM

Mən Solmazam, Haqq itirən deyiləm,
Yarpaq deyil yel vuranda əyiləm,
Dosta sadiq, hər əzaba qailəm,
Sözümdə doğruyam, sevgidə mətin!

Dostuma can deyən, qurban olanam,
Bulud kimi boşalanam, dolanam,
Ürəkdən sevənəm, qeydə qalanam,
Saf bir övladıyam, mən bu millətin!

Qəlbim sevgi dolu dindirən üçün,
Sözdən söz çəkirəm qandıran üçün,
Nalə ocagıyam yandıran üçün,
Doğrayıb cəllad tək, didərəm ətin!

Ürəyim elə saf, başın tacıdır,
Əllərim şəfalı, dərd əlacıdır.
Dəyərin bilənə sadiq bacıdır,
Kişitək çəkəndir Vətən qeyrətin!

Can deyib, canını qıyandı Solmaz,
Hər kəsi anlayıb, duyandı Solmaz,
Dostun göz yaşını yuyandı Solmaz,
Dostsa üz çevirib, kəsib ülfətın!

Solmazam, dost üçün canımı verən,
Sevgini başına tac edib hörən,
Sevdiyi insana əlini verən,
Yolunda qurbanam saf məhəbbətin!

## ŞİRVAN ELİM, AY ŞAMAXIM

Aranın var, yaylağın var,
Çiçək açan oylağın var,
Dağ sellərin, çaylağın var,
Şirvan elim, ay Samaxım!

Meşəsində cüyür-ceyran,
Görənləri olur heyran,
Bir canım var sənə qurban,
Yazan əlim, ay Samaxım!

Pirdirəki, Gülüstanın,
Yazılmamış min dastanın,
Qardaşındır Qobustanım,
Açan gülüm, ay Samaxım!

Çox qədim bir tarixin var,
Şirvan eli dünyaya car,
Seyid Əzim, Sabirin var,
Şeir dilim, ay Şamaxım!

Solmaz, sənə nəğmə qoşur,
Sevinci başından aşır,
Səni sevib cavanlaşır,
Başda telim, ay Şamaxım!
Bəmim, zilim, ay Şamaxım!

## AZƏRBAYCAN ƏSGƏRİ

Öyüdü beşiyində,
Yatmır ev-eşiyində,
Vətənin keşiyində,
Azərbaycan əsgəri!

Tutub yağıya divan,
Edəcəkdir qana-qan,
Torpaq üçün qoyub can,
Azərbaycan əsgəri!

Səngərində dayanır,
Yata bilmir, oyanır,
Al qanına boyanır,
Azərbaycan əsgəri!

Olub Vətən dayağı,
Ver Qələbə sorağı,
Əldə Vətən bayrağı,
Azərbaycan əsgəri!

Qeyrət axır qanında,
Ucadır el yanında,
Şəhid edir canın da,
Azərbaycan əsgəri!

Solmaz sizə can deyir,
Canını qurban deyir,
Hey Azərbaycan deyir,
Azərbaycan əsgəri!

***

Bayrağına bürünər,
Səngərində sürünər,
Zirvələrdə görünər,
Azərbaycan əsgəri!

Zəfər üçün and içər,
Yağı düşməni biçər,
Şirin canından keçər,
Azərbaycan əsgəri!

Canını qurban edər,
Düşmənin gözün didər,
Vətənə qurban gedər,
Azərbaycan əsgəri!

Əldə Zəfər bayrağı,
Gözəlləşdir növrağı,
Ver Qələbə sorağı,
Azərbaycan əsgəri!

Solmaz, qurban canımı,
Halal etdim qanımı,
Doğruldar gümanımı,
Azərbaycan əsgəri!!!

## YAŞAYIRAM

Gah aranda, gah dağdayam,
Nəğmə deyən dodaqdayam,
Yaşıllaşan budaqdayam,
Mən də belə yaşayıram!

Xəyallarda quşa dönüb,
Gah da yaza, qısa dönüb,
Gah qara, yağışa dönüb,
Dönüb selə yaşayıram!

Gah nəğməyəm yar dilində,
Gah axıram dağ selində,
Darağ olub yar telində,
Gülə-gülə yaşayıram!

Yaş da gəlir yaş üstünə,
Daş qoymadım, daş üstünə,
Gözdən töküb yaş üstünə,
Gilə-gilə yaşayıram!

Yar da yarın qoyub ağlar,
Acı sözü ürək dağlar,
Xəzəl olur bağça-bağlar,
Dönüb külə yaşayıram!

Gah qələməm, gah vərəqəm,
İtən yurduma sorağam,
Başı qarlı Murovdağam,
Həsrətilə yaşayıram!

Bir görən yox gözüm dolub,
Lalə yanaqlarım solub,
Həmdəmim dörd divar olub,
Düşüb dilə yaşayıram!

Yox vəfası dostun-yadın,
Şerində qalacaq adın,
Solmaz, Haqq verər muradın,
İldən-ilə yaşayıram!

## DOĞMA YURDUMA

Kəndim Ovculudur, elimdir Şirvan,
Bu şair ürəyim yurduma qurban,
Solmazam, elimi unutsam bir an,
Qoy alsın canımı Allahım mənim,
Açmasın üzümə sabahım mənim!

Cəhənnəm olsa da isti günəşi,
Mən ondan almışam alov-atəşi,
Qoynunda uyuyar Solmazın nəşi,
Anadır, bir odur pənahım mənim,
Vətənsiz açmasın sabahım mənim!

Vətəndir and yerim, həm qibləgahim,
Torpaq yad əllərdə nədir günahım,
Ay Allah bir sənsən son ümidgahım,
Qarabağ dərdidir bir ahım mənim,
Qayıtsa gül ?çar sabahım mənim!

## SEVGİ ŞEİRİ YAZMAYACAM

Dostlar sizə bir söz deyim,
Sevgi şeri yazmayacam!
Sevgi sözün ucuz tutub,
Ona məzar qazmayacam!

Yazacağam dağdan, düzdən,
Al yanaqdan, xallı üzdən,
Ləpə vuran göy dənizdən,
Şevgi şeri yazmayacam!

Yazacağam göy meşədən,
Boynubükük bənövşədən,
Yazmacam məni üsüdən,
Sevgi şeri yazmayacam!

Sevgi mənə nə verdi ki?
Başıma qəm əndərdi ki,
Dərd elədi var hər nə ki,
Sevgi şeri yazmayacam!

Yazacağam bu dünyadan,
Gedəcəyim o dünyadan,
Sevgi əzab oldu müdam,
Sevgi şeri yazmayacam!

Solmaza eşq dərd olub dərd,
Dünya dolu nadan-namərd,
Çıxmasa yoluma bir mərd,
Sevgi şeri yazmayacam!
Sevgi şeri yazmayacam!!!

## VAR MƏNİM

*Dostum, rəfiqəm Qənirə Əliəkbərin "Şamaxının hansı kəndindənsən" sualına yazdım!!*

Xəritədə bir balaca yer tutan,
Bir şair yetirib dünyaya atan,
Dağlar ətəyində dincəlib yatan,
Ovculu adında kəndim var mənim!

Gələsən baharda görəsən onu,
Sevən ürəyinə hörəsən onu,
İstilər düşəntək otu saralan,
Suları quruyan bəndim var mənim!

Gəlsən əgər sən bu eldə gəzməyə,
Yar telinə mirvarilər düzməyə,
İstəsən ki, bir çiçəyin üzməyə,
Deyərəm hansın üz zəndim var mənim!

Gəlib payız fəsli yamyaşıl hər yan,
Yay vaxtı cəhənnəm, sapsarı saman,
Bir azdan alacaq qarlı qış, boran,
Onu əzizləyən fəndim var mənim!

Solmazın qonağı olun yaz-bahar,
Yalançı deyiləm, sözdə düz ilqar,
Qəlbimi oxşayan bir diyarım var,
Onu vəsf etməyə şair ürəyim,
Beş-altı misram var, bəndim var mənim!!

## EY VƏTƏN

Dizimin taqəti, gözümün nuru,
Ömrümün bəzəyi, fəxri-qururu,
Yazdığım misramın sənsən uğuru,
Sən mənim canımsan, canım ey Vətən,
Şövkətim, ey Vətən, şanım ey Vətən!

Kaş dolanam dağlarını, düzünü,
Siləm yurddan yad-yağının izini,
Sevincə bələyəm Cıdır düzünü,
Axıdam yolunda qanım, ey Vətən,
Şövkətim ey Vətən, şanım ey Vətən!

Qartallar qıy vuran dağların mənim,
Çiçəkli-meyvəli bağların mənim,
İtkinin-şəhidin, ağların mənim,
Sən mənim adımsan, sanım ey Vətən,
Şovkətim ey Vətən,şanım ey Vətən!

Göyçən, Zəngəzurun gedib əlindən,
Millət didərgindir oba-elindən,
Yağıya bir od qoy, dağla dilindən,
Solmazam, gövhəri-kanım ey Vətən,
Şovkətim ey Vətən, şanım ey Vətən!!!

## SƏN QAYITMADIN

Aradım, axtardım, durna köçündə,
Səni əzizlədim könlüm içində,
Sevən arasında, qaldım seçimdə,
Durnalar qayıtdı, sən qayıtmadın!

Nə deyim, nə yazım ürəkdən olsun,
Saf eşqdən, arzudan, diləkdən olsun,
Bir bahar mehindən, küləkdən olsun,
Durnalar qayıtdı, sən qayıtmadın!

Könlüm həsrət yükün çiynine alıb,
Gözlərim intizar, dalınca qalıb,
Ürəyim eşqinlə xəyala dalıb,
Durnalar qayıtdı, sən qayıtmadın!

Getdin, xatirən də saraldı getdi,
Sənsizlik acısı ruhumu diddi,
Daha surətin də gözümdən itdi,
Durnalar qayıtdı, sən qayıtmadın!

Bir durna köcünə qoşulub getdin,
Getdin uzaqlara gözümdən itdin,
İtirdin Solmazı, sən fəryad etdin,
Durnalar qayıtdı, sən qayıtmadın!